# ZƏFƏRİN OĞLU

## *Şuşa fatehi, şəhid baş çavuş Səid Zəfər oğlu Cəfərova həsr olunur*



Vətən hamı üçün bir qayda olaraq eyni anlaşılan, eyni duyulan, dərk edilən, hamı üçün bərabər hiss olunan bir məfhumdur. Eyni zamanda hamı da vətən üçün bir və bərabərdir. Hamı üstündə ayaq basdığı, yaşadığı, böyüyüb boya-başa çatdığı torpaq qarşısında borcludur və daim özünü bu torpaq qarşısında borclu hiss etməlidir. İnsan ömrü boyu ona öz isti qucağını açan, onu qulac qollarında böyüdən və özünə layiq bir şəxsiyyət kimi formalaşdıran ana yurda bağlı, vurğun olmalıdır. Harada olsa, harada yaşasa belə sonda yenə öz ürəyini, qəlbini doğulub böyüdüyü yerdə, yurdda, üzərində ilk addım atdığı həmin torpaqda hiss etməlidir. Harada olursa olsun, öz vətəninə layiq olmağa çalışmalı, əlindən gələnin ən yaxşısını vətəninin, xalqının, millətinin, elinin, obasının şərəfli adı üçün səfərbər etməlidir. Vətənin və onun vətəndaşlarının, vətən övladlarının ən dar günü isbat, imtahan günüdür. İsbat günü odur ki, artıq vətənin başını qara buludlar alıb və vətən oğlu, vətən qızı bu dar gündə öz elinə, obasına kömək edərək özünü əsl vətəndaş kimi sübut etməli, bu imtahandan müvəffəq qiymətlərlə çıxmaqla vətəndaşlıq adını sübut etməlidir. Vətən onda əsl vətən, əsl yurd olur ki, özünə layiq övladlar yetişdirib və o övladlar hər şəraitdə tək anasına - vətəninə kömək etməyə hazırdır. Dar gündə həm vətəndaşın vətəndaşlığı, həm də vətənin vətənliyi sübut olunur. Təəssüflər olsun ki, hamı vətən qarşısında bir olsa da başdan bəri sadaladığım bu qayda-qanunlar hər adama şamil olunmur. Daha doğrusu, hamı özünü bu qayda-qanuna şamil etmək istəmir. Onlar, əlbəttə, vətənin dar gününə hazır deyillər, deməli, onlarda isbat olunası vətənsevərlik hissi yoxdur. Amma onlar eyni zamanda düşmənə açıq qapı buraxmaqla vətənlərini də təhlükə qarşısında qoyurlar. O vətən, o yurd xoşbəxtdir ki, onun nə olursa olsun, haradasa bir yerdə onu qorumağa, bəlalardan hifz etməyə bütün ömrünü verməyə hazır olan övladları var. Azərbaycanımız ona görə xoşbəxtdir ki, onun belə övladları həmişə olub, indi də var və bundan sonra da olacaq!

O övladların varlığı son zamanlarda ən çox 44 günlük şanlı Vətən müharibəmizdə sübut olundu. Qəhrəmanlar canlabaşla üstündə gəzdikləri torpağın, üzərində əziyyətləri olan elin, obanın həmin o əziyyətlərinin haqqını layiqincə verdilər. Bu yolda qan tökdülər, can verdilər. Həmin o canından, qanından keçən oğullardan biri də 44 günlük Vətən müharibəsinin 44-cü günündə Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla canından keçən şəhid baş çavuş Səid Zəfər oğlu Cəfərovdur!

Səid Zəfər oğlu Cəfərov 4 fevral 1993-cü ildə Neftçala rayonunun Xolqarabucaq inzibati ərazisinə daxil olan Dördlər kəndində dünyaya gəlmişdir. Uşaq yaşlarından babası Cəfər kişinin Böyük Vətən müharibəsində, dayısı Əkbər kişinin Birinci Qarabağ müharibəsində keçdiyi döyüş yolu, xalqımızın keçdiyi keşməkeşli zamanlar barədə eşitmiş, öyrənmiş və bundan çox təsirlənmişdir. Elə o vaxtlardan balaca Səiddə gendən gələn vətənpərvərlik hissi daha da qabarmış, coşmuş, çağlamış və ruhu bədənindən çıxdığı ana qədər onu tərk etməmiş, hər keçən zaman dövründə daha da şölələnmiş, alovlanmışdır. Səid 1999-2010-cu illərdə Neftçala rayonu şəhid İlqar Səfərov adına Mürsəqulu kənd tam orta məktəbində orta təhsil almışdır. Vətənsevər gəncimiz bundan sonra məktəb illərində qəlbində yaratdığı, sinif-sinif böyüyən, artan və əvəzolunmaz arzuya çevrilən hərbçi olmaq arzusunu gerçəkləşdirmək barədə qərar qəbul etmişdir. 2011-ci ilin aprel ayında Səid Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmışdır. Radioteleqrafçı kimi nümunəvi xidmətə başlayan Səid 2012-ci ilin oktyabrında hərbi xidmətini uğurla başa vurmuşdur. Lakin hərbi xidmətdən evə qayıtdığı andan onun daxilini bir hiss, bir duyğu narahat etməyə başlamışdır. Bu da təbii ki, illərlə xəyalı ilə yaşadığı hərbçi olmaq istəyi idi. Ona görə də vaxt itirməyib 4 iyun 2013-cü ildə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında müddətdən artıq həqiqi hərbi xidmətə başlamışdır. İlk olaraq Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə xüsusi vasitələrin tətbiqi dəstəsinin eyniadlı bölməsinin eyniadlı qrupunda atıcı olaraq xidmət etmişdir. Sonra da paytaxtın Binəqədi qəsəbəsində xidmətini davam etdirən Səid xidmət müddətində nümunəviliyinə görə dəfələrlə fəxri fərman və təşəkkürnamələrlə təltif olunmuş, komandirlərinə və əsgər yoldaşlarına bacarıqlı, vətənsevər hərbçi timsalı olmuşdur. Baş çavuş rütbəsinə yüksələn qəhrəmanımız 2019-cu ilin sentyabr-oktyabr aylarında qardaş Türkiyə Respublikasının Ankara şəhərində yerləşən Jandarm Özəl Asayiş Komandanlığına məxsus tədris mərkəzində xüsusi əməliyyatların aparılması üzrə təlim kursunu da fərqlənmə ilə keçmişdir. İndi isə ana-atasının, ailəsinin və sevdiklərinin sevimli və layiqli övladı olan qəhrəmanımız haqqında onun anası Könül ananın dilindən Səid barədə eşidək. Könül ana deyir: "Səidin iş yoldaşları, döyüş yoldaşları danışırdılar ki, o, döyüşə gedəndə döyüş yoldaşlarını ruhlandırırdı, döyüşə elə həvəslə atılırdı ki, elə bil odun-alovun üzərinə yox, toy şənliyinə gedirdi. Döyüş yoldaşları ondan soruşmuş ki, niyə döyüşdən əvvəl belə şən olursan? Axı müharibədəyik, mənfur düşmənlə ölüm-qalım döyüşünə gedirik? Səid deyirmiş ki, çoxdandır, hələ uşaqlıq yaşlarımdan bu günü gözləyirdim. Artıq gözlədiyim, uzun illər arzusunda olduğum gün gəlib çatıb, ən böyük arzuma çatmışam. Niyə sevinməməliyəm ki? Komandiri deyirmiş ki, Səid yüksək əhval-ruhiyyə ilə döyüşə gedirdi. Sanki toy-bayrama gedirdi. Çoxdankı arzusu idi ki, torpaqlarımız işğaldan azad olunsun və bu müharibədə özü də iştirak edib mənfur düşmənimizdən qisasını alsın.



Vətən müharibəsindən əvvəl Səid Türkiyəyə təlimə getmişdi. Oraya çatdığını bizə xəbər verməmişdi. Getdiyi 2-3 gün olardı, mən onunla telefon ilə əlaqə saxlayanda soruşdum ki, Səid, Türkiyə ilə bizim ölkəmizin fərqi nədir? Çox gözəl yerdimi? Dedi: "Ana, mən bura gəzməyə yox, hərbi təlimlərə gəlmişəm. Bura qardaş ölkədir, özümü ikinci vətənimdəki kimi hiss edirəm. İnşallah, torpaqlarımızı erməni mənfurlarının tapdağından azad etdikdən sonra qalib xalqın, qalib ordunun bir nümayəndəsi kimi gəzməyə gələrəm. İndi isə məni ən çox təlimlər maraqlandırır. Çünki bu təlimlər mənə düşmənlə döyüşdə lazım olacaq. Bircə onu deyə bilərəm ki, Türkiyə çox inkişaf etmiş dövlətdir. Mən fəxr edirəm ki, Türkiyənin Atatürkü və bizim Heydər Əliyevimiz bir millət, iki dövlətin işıqlı gələcəyi uğrunda çalışıblar".



Səid 6-cı sinifdə oxuyanda Cəmşid Naxçıvanski adına Hərbi Liseyə sənədini vermək üçün getmişdi. Sənədlərini rayona gedib özü hazırlatdırmışdı. Mənim də böyük qardaşım Əkbər Birinci Qarabağ müharibəsində kapitan rütbəsi ilə iştirak edərək düşmənə qarşı döyüşmüş, 1-ci qrup əlil olmuş və yerimə qabiliyyətini itirmişdir. O, Səidin hərbçi olmaq istəyini bildikdə belə demişdi: "Səid, torpaqlarımız güclü havadarları olan erməni işğalçılarının tapdağındadır. İndi atəşkəs olmasına baxmayaraq torpaqlarımızın azad edilməsi üçün bir gün müqəddəs müharibəmiz olacaq. Müharibə isə vətən yolunda elə bir müqəddəs yoldur ki, bu yola gedib, ümumiyyətlə, dönməmək də var, mənim kimi əlil olaraq dönmək də var. Ona görə də vətənə hərbi xidmət yolunu seçirsənsə, bəri başdan hər şeyə hazır olmalısan. Sən bədəncə çox arıq və zəif uşaqsan, bu vəziyyətdə mən səni hərbçi kimi görə bilmirəm. Əgər həqiqətən də hərbçilik yolunu seçirsənsə, öz üzərində işləməlisən, ilk olaraq fiziki cəhətdən çox güclü olmalısan ki, qaniçən düşmənin önünə çıxa biləsən". Böyük qardaşım bu sözləri deyəndə kiçik qardaşım da orada olub. Səid isə dayısına deyib: "Dayı, dediklərinə əməl edəcəyəm, sən dediyin kimi fiziki cəhətdən güclü olacağam. Mən hərbçi olub sənin də, Qarabağda şəhid olan bütün şəhidlərimizin də qisasını alacağam". Həmin vaxt Səidin cəsarətlə dediyi bu sözlərinə hər iki dayısı gülür. Səid, həqiqətən də fiziki cəhətdən sağlam, güclü, hərbi sənəti mükəmməl bilən bir hərbçi oldu, Vətən müharibəsində qəhrəmanlıqla döyüşərək torpaqlarımızın işğaldan azad edilməsində mərdliklə iştirak etdi və Şuşa uğrunda gedən qanlı döyüşlərdə qəhrəmanlıqla şəhid oldu. Dayıları Səid şəhid olduqdan sonra Səidə dediklərindən çox peşman oldular və özlərini qınadılar ki, niyə Səid o vaxt elə deyəndə biz ona inanmayıb istehza ilə gülmüşük!? Onlar, həqiqətən, bu gün də həmin hadisənin peşmanlığını çəkirlər.

Səid uşaq olan vaxt bir dəfə mən atamgilə getmişdim. Qardaşımın qızı da orada idi. Qapıda hündür yük maşını var idi. Qardaşımın qızı Səidlə birlikdə həmin maşının kabinəsində oynayırdılar. Maşının qapısı isə açıq idi, həmin vaxt qardaşımın qızı Səidi açıq qapıdan itələdi, Səid arxası üstə betonun üzərinə yıxıldı. Zərbənin təsirindən təxminən 20-30 dəqiqə Səid ayılmadı. Allaha dua etdim ki, ona heç nə olmasın. Həmin vaxt uca Allah dualarımı eşidərək elə bil Səidi mənə yenidən verdi. Yəqin ki, Allah onu bu dünyadan şərəfli aparması üçün həmin vaxt mənə qaytarıbmış...

Həmişə Səid mənə deyirdi: "Ana, hər bir insanın bu dünyaya gəldiyi kimi geci-tezi bir gün bu dünyadan getməyi də var. Mən ağlım kəsəndən arzulayıram ki, Allah məni bu dünyadan şərəfli ölümlə aparsın". Deyirdim, ay Səid, niyə belə danışırsan, cavan oğlansan, sənin bütün gələcəyin qarşıdadır axı!? Səid deyirdi ki, axı heç kim ölümsüz deyil. Nə vaxtsa, biz bu dünyanı tərk edəcəyik, mən isə bu dünyanı şərəflə tərk etməyi arzulayıram. Hələ uşaq vaxtlarından Səid heç nədən qorxmurdu. Müharibədə onun böyük döyüş yolu var idi. Hər bir əsgərin, hər bir zabitin, hər döyüşçünün özünə görə öz döyüş yolu var. Səidin də özünün özünəməxsus döyüş yolu var idi".

*(Davamı var)*



***SEVİNDİK NƏSİBOĞLU***
***şair-publisist, AJB üzvü***